

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 dekabr 2024-cü il №98 (2909) https://mod.gov.az Qiymәti 30 qəpik





## Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rəsmi sosial şəbəkə səhifələrində paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib:

"Əziz həmvətənlər!

Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy Tanrı öz mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin! Qoy yer üzündəki bütün azərbaycanlılar sağlam və xoşbəxt olsunlar! Sizə və ailələrinizə möhkəm cansağlığı, xoş ovqat, sevinc və xoşbəxtlik arzulayıram!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsi Bakı-Qrozni (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il dekabrın 25-də Bakı-Qrozni (Rusiya Federasiyası) reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Rusiya Federasiyasının hava məkanında kənar fiziki və texniki müdaxiləyə məruz qalaraq idarəetməni itirmiş vəziyyətdə Qazaxıstan Respublikasının Aktau şəhəri istiqamətinə yönləndirilmişdir. İnsan tələfatı və xəsarət alanlar olmasına baxmayaraq, pilotların, bələdçilərin yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində təyyarə qəza enişi həyata keçirmiş və sərnişinlərin bir qismi xilas edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı-Qrozni (Rusiya Federasiyası) reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Azərbaycanın Milli Qəhrəmanı” adı ilə:**

Kşnyakin İqor İvanoviç (ölümündən sonra)
Kalyaninov Aleksandr Georgiyeviç (ölümündən sonra)
Əliyeva Hökumə Cəlil qızı (ölümündən sonra)

**1-ci dərəcəli “Rəşadət” ordeni ilə:**

Əsədov Zülfiqar Sərdar oğlu
Rəhimli Aydan Vaqif qızı.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2024-cü il

## Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Televiziyasına müsahibə verib.*

AZƏRTAC müsahibəni təqdim edib.

**Jurnalist**: Salam cənab Prezident.

**Prezident İlham Əliyev**: Salam.

**Jurnalist**: Təəssüf ki, ötən günlərdə bizi dərindən sarsıdan hadisə baş verdi. Dekabrın 25-də Bakı-Qrozni istiqaməti üzrə marşrutu yerinə yetirən AZAL-a məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması və bundan sonra hadisələrin inkişafı ilə bağlı fikirlərinizi bilmək istərdik.

**Prezident İlham Əliyev:** Mən bu barədə Sankt-Peterburqa MDB Zirvə görüşünə uçarkən məlumat aldım, məlumatlandırıldım, dərhal göstəriş verdim və təyyarə geri - Bakıya döndü. Bakıya gələn kimi burada hava limanında operativ müşavirə keçirdim. Hələ Bakıya qayıdarkən mənim göstərişimlə Dövlət Komissiyası yaradılmışdır və müvafiq qurumların nümayəndələrindən ibarət heyət Aktau şəhərinə dərhal ezam edilmişdir. Çünki onlar dərhal işə başlamalı idilər. İlk növbədə, təyyarənin qalıqlarının vəziyyəti ilə tanış olmalı idilər, yerində müşahidə aparmalı idilər, video və fotomateriallar əldə etməli və onları ictimaiyyətə təqdim etməli idilər.

Eyni zamanda, Azərbaycan həkimlərindən ibarət qrup ezam edilmişdi. Baxmayaraq ki, Qazaxıstan tərəfi yaralıları sağaltmaq və onlara tibbi xidmət göstərmək üçün əlindən gələni əsirgəmirdi. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan Baş Prokurorluğu cinayət işi açmışdır və bilirəm ki, həm Qazaxıstanda, həm Rusiyada oxşar addımlar atılmışdır.

Təbii olaraq ilkin versiyalar üzərində iş başladı. Əlbəttə, son versiya "qara qutu"lar açılandan sonra bəlli olacaq. Ancaq ilkin versiyalar da kifayət qədər əsaslıdır və faktlara söykənir. Faktlar isə ondan ibarətdir ki, Azərbaycanın mülki təyyarəsi Rusiya ərazisində, Qrozni şəhərinin yaxınlığında xaricdən zədə almış və idarəetməni demək olar ki, itirmişdir. Onu da bilirik ki, təyyarəmiz radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bu, təyyarəyə yetirilən birinci xətərdir. Eyni zamanda, yerdən açılan atəş nəticəsində təyyarənin quyruq hissəsi də böyük dərəcədə zədələnmişdir və dərhal, elə həmin gün bizim heyətimiz Aktau şəhərində artıq o videomateriallları təşkil edəndə ictimaiyyət də bu məsələ ilə məlumatlandırıldı. Füzelyajın dəlik-deşik olması, əlbəttə, göstərir ki, bilmirəm, ilkin olaraq kimin tərəfindən atılmış quş versiyası tamamilə gündəlikdən çıxarıldı. Ola bilər ki, təyyarə zədə alanda, zərbə alanda pilot bunu quşların təyyarə ilə toqquşması kimi qəbul edə bilərdi. Çünki yəqin ki, heç kimin ağlına gələ bilməzdi ki, bizim üçün dost olan ölkədə bizim təyyarəyə yerdən atəş açılsın. Ancaq təəssüflər olsun ki, Rusiyanın bəzi dairələri bu versiya üzərində dayanmağa üstünlük vermişdilər. Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir və əlbəttə, bu, heç kimə başucalığı gətirmir. Təbiidir ki, təyyarəmiz təsadüfən vuruldu. Təbiidir ki, burada hər hansı bir qəsdən terror aktı törətmək məsələsindən söhbət gedə bilməz. Ona görə öz günahını etiraf etmək, dost ölkə sayılan Azərbaycandan vaxtında üzr istəmək və bunu ictimaiyyətə bildirmək - bütün bunlar görüləsi tədbirlər idi və addımlar idi. Əfsuslar olsun ki, birinci üç gün ərzində biz Rusiyadan cəfəng versiyalardan başqa heç nə eşitməmişik.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj üzvlərinin vida mərasimində iştirak edib




Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak edib, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.



# Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib

(Əvvəli 1-ci səhifədə)

Təbii ki, qəzanın təfərrüatları tam araşdırılacaq. Bundan mənim şübhəm yoxdur. Onu da bildirməliyəm ki, Azərbaycan ilk gündən beynəlxalq ekspertlərdən ibarət qrupun bu işlə məşğul olmasının tərəfdarı idi. Rusiya tərəfi rəsmi qaydada bizə təklif etmişdi ki, Dövlətlərarası Aviasiya Komitəsi bu işi araşdırsın. Biz isə qəti şəkildə bundan imtina etdik. Səbəb də aydındır. Çünki sirr deyil ki, bu qurum daha çox Rusiya məmurlarından ibarətdir və qurumun başında Rusiya vətəndaşları dayanır. Burada obyektivlik amilləri tam təmin edilməyə bilərdi. Əgər qəza baş verəndən dərhal sonra biz Rusiya tərəfindən ədalətli və adekvat addımlar görsəydik, bəlkə də buna etiraz etməzdik. Amma biz gördük ki, burada məsələni ört-basdır etmək cəhdləri göz qabağındadır.

Ona görə biz həm Qazaxıstan tərəfi ilə sıx təmasda olarkən bu mövqeyimizi bildirdik, həm də Rusiya tərəfinə mövqeyimizi bildirdik ki, ancaq beynəlxalq ekspertlərdən ibarət işçi qrup yaradılmalıdır və yaradılmışdır. Orada təyyarənin istehsalçı şirkəti - "Embraer"in nümayəndələri, Braziliyanın müvafiq qurumlarının nümayəndələri, Azərbaycan, Qazaxıstan və Rusiyanın, o cümlədən Dövlətlərarası Aviasiya Komitəsinin nümayəndələri də var. Ancaq aparıcı rollarda yox, sadəcə olaraq, işçi qrupun tərkibində olan üzvlər kimi. Yenə də deyirəm, "qara qutu"lar açılandan sonra və daha detallı məlumat əldə etdiyimiz halda məsələnin tam təfərrüatları üzə çıxacaq və bu gün hələ ki, sual kimi qalan bir çox məsələlərə aydınlıq gətiriləcək. Məsələn, təyyarə nə üçün Qroznı şəhərinə enə bilmədi? Radioelektron mübarizənin təsiri nə dərəcədə təyyarənin idarə olunmasına təsir göstərmişdir? Havada endirilən zərbə və təyyarənin yanında olan partlayışın nəticələri nə dərəcədə təsirli oldu? Çünki onu da bildirməliyəm ki, bu, açıq-aydın faktı inkar etmək və burada gözdən pərdə asmaq cəhdləri həm cəfəngiyyatdır, həm də ağılsızlıqdır. Çünki xoşbəxtlikdən ekipajın qəhrəmanlığı sayəsində elə hadisə baş verdi ki, təyyarə enə bildi, qəza enişi olsa da, təyyarə enə bildi. Sərnişinlərin bir çoxu xilas edildi, onların ifadələri var. Təyyarəni deşən qəlpələrin sərnişinlərə və ekipaj üzvlərinə yetirdiyi xəsarət göz qabağındadır. Bunu hansısa quşlarla bağlamaq, yaxud da ki, qaz balonunun partlaması kimi qələmə vermək həm ağılsızlıqdır, həm də vicdansızlıqdır.

Ona görə də "qara qutu"lar açılandan sonra bilinəcək ki, nə üçün təyyarə enə bilməyib? Dəqiq nə vaxt təyyarəyə yerdən atəş açılıb? Nə üçün yaxında olan hava limanlarına təyyarə eniş cəhdi etməyib, daha yaxın Minvod və Mahaçqala hava limanları idi. Təyyarə Aktauya göndərildimi, yoxsa bu, obyektiv seçim idi? Müxtəlif fərziyyələr var. Bəziləri hesab edir ki, təyyarə bilərəkdən yerdəki xidmət tərəfindən, Qroznı tərəfindən göndərildi ki, çünki təyyarə artıq idarəolunmaz vəziyyətdə idi və ehtimal böyük idi ki, təyyarə dənizə düşəcək. Belə olan halda, ört-basdır cəhdləri uğurla nəticələnəcək və dırnaqarası quş versiyası əsas versiya kimi təqdim ediləcək. Bəzi mütəxəssislərin fikirlərinə görə, Aktau ona görə seçilmişdir ki, orada açıq məkandır və yaşayış yerləri hava limanından uzaqdır və təyyarə ekipajı fərz edə bilərdi ki, bu, qəza enişi olacaq və bunun üçün daha uyğun yer seçmişdi. Ancaq digər tərəfdən, yaxın hava limanları olan halda, təyyarə idarəolunmaz vəziyyətdə olan halda daha uzaq məsafəyə, özü də dənizin üzərindən uçmaq daha riskli idi. Yəni, bütün bu suallara hələ ki, cavab yoxdur. Biz Azərbaycan tərəfi və şəxsən mən maksimum ədalətli olmağa çalışırıq. Biz hansısa tam aydın olmayan məsələləri, bu məsələlər aydınlaşmadan bu barədə fikir söyləmək istəmirik. Ancaq açıq-aydın olan məsələlərdə biz tam qətiyyətlə öz fikrimizi deməliyik, deyirik və deyəcəyik. Mən qəza baş verən gün burada - hava limanında öz çıxışımda söylədim ki, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu məsələ ilə, bu istintaqın gedişatı ilə bağlı məlumatlandırılacaq və məlumatlandırılır.

**- Cənab Prezident, bəs təyyarə ekipajının fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Çox yüksək. Bu gün mən vida mərasimində iştirak etdim, həlak olan ekipaj üzvlərinin yaxınlarına başsağlığı verdim. Bu gün ekipaj üzvlərinin təltifi ilə bağlı mənim Sərəncamım olacaq. Mən onların fəaliyyətini, peşəkarlığını, fədakarlığını çox yüksək qiymətləndirirəm. Pilotlar və bütün ekipaj böyük qəhrəmanlıq göstərdilər. Pilotlar həm peşəkarlıq, həm qəhrəmanlıq göstərmişlər ki, idarəedilməz vəziyyətdə olan təyyarəni müxtəlif üsullarla idarə edirdilər. Baxmayaraq, təbii ki, pilotlar təcrübəli pilotlar idi və bilirdilər ki, onlar bu qəza enişindən sağ çıxa bilməyəcəklər. Ancaq sərnişinləri xilas etmək üçün onlar maksimum böyük qəhrəmanlıq göstərmişlər və məhz bunun nəticəsində təyyarə qəzasında sağ qalanlar var. Məhz bunun nəticəsində füzelyajın bir hissəsi yanmayıb və məhz bunun nəticəsində bu gün biz tam açıq-aydın deyə bilərik ki, təyyarə Rusiya tərəfindən vuruldu. Bax bu faktdır və bu faktı heç kim dana bilməz. Yenə də biz demirik ki, bu, qəsdən edildi, amma bu, edildi.

Pilotlar və ekipaj üzvləri - onlar həm peşəkarlıq, həm soyuqqanlılıq göstərmişlər. Xüsusilə mən qadın ekipaj üzvlərini qiymətləndirməliyəm. Onlar özləri stres vəziyyətində idi. Ancaq sərnişinləri sakitləşdirmək, təyyarənin içində xaos vəziyyəti yaratmamaq üçün görün, onlar nə qədər böyük insani davranış göstərmişlər. Onların fəaliyyəti, yenə də deyirəm, Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndiriləcək. Allah ölən ekipaj üzvlərinə və bütün həlak olanlara rəhmət eləsin və biz sağ qalanlara Allahdan şəfa diləyirik. Sağ qalanların böyük hissəsi artıq Bakıdadır. Onlar Qazaxıstanda dərhal müalicə almışlar. Bəziləri hələ ki, müalicə alır və imkan olan kimi onlar da Azərbaycana təxliyə ediləcəklər.

**- Cənab Prezident, Siz Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə zəng etdiniz. Müzakirə olunan məsələlər barədə fikrinizi bilmək istərdik. Ümumiyyətlə, məsələ ilə bağlı birgə fəaliyyət aparan Azərbaycan və Qazaxıstan hökumətləri rəsmilərinin bu birgə fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Bəli, mən, ilk növbədə, Prezident Tokayevə minnətdarlığımı ifadə etmək üçün zəng etdim. Çünki biz bilirdik və məlumat əldə etmişdik ki, qəza baş verən kimi Qazaxıstan xilasediciləri dərhal hadisə yerinə yetişdilər və insanları o dağılmış füzelyajdan çıxartmağa başlamışdılar. Öz həyatlarını risk altına atmışdılar. Çünki onlar bilmirdilər ki, növbəti partlayış olacaq, yoxsa yox. Çünki təyyarənin bir hissəsi yanmışdı və bu hissədə yana bilərdi. Amma buna baxmayaraq, onlar da əsl qəhrəmanlıq göstərmişdilər. Eyni zamanda, həkim personalının fəaliyyəti də çox qiymətli idi. Çünki yaralı sərnişinlər dərhal tibb məntəqələrinə aparıldılar və buna görə də Prezident Tokayevə mən təşəkkürümü bildirdim. Qazaxıstanlı qardaşlarımızın, bacılarımızın həmrəylik nümayişi də mən bilirəm ki, Azərbaycan xalqının qəlbində çox böyük iz buraxmışdır. Adi vətəndaşlar bizim Aktaudakı konsulluğa gələrək gül qoydular, öz münasibətlərini bildirdilər, bizimlə həmrəy olduqlarını bildirdilər. Əsl dostluq, qardaşlıq belə olar. Eyni zamanda, mən Prezident Tokayevlə söhbət zamanı Azərbaycanın istintaqla bağlı mövqeyini də bildirdim və bax, sizə dediyim məsələləri də onun diqqətinə çatdırdım ki, biz beynəlxalq ekspertizanın tərəfdarıyıq və heç cür bu məsələni Dövlətlərarası Aviasiya Komitəsinin sərəncamına verə bilmərik. Bu mövqe də anlayışla qarşılandı. Təbii olaraq, bizim dövlət qurumlarımızın nümayəndələri, komissiyanın üzvləri və rəhbərləri, prokurorluq orqanlarının nümayəndələri daim təmasdadırlar. Qazaxıstan da öz növbəsində Dövlət komissiyası yaratmışdır və Prezident Tokayev söhbət zamanı bu barədə mənə məlumat vermişdi. Onlar da təbii olaraq istəyirlər və çalışırlar ki, məsələ tam təfərrüatları ilə açılsın. Eyni zamanda, mən Prezident Tokayevə də başsağlığı verdim, çünki qəza nəticəsində altı Qazaxıstan vətəndaşı həlak olmuşdu. O da mənə başsağlığı vermişdi. Yəni, bu nə qədər ağır hadisə olsa belə, eyni zamanda, bir sınaq məsələsi idi. Yəni, bu sınaqdan kim necə çıxacaq? Mən şadam ki, yenə də bu faciəyə baxmayaraq, görürəm və əminəm ki, Qazaxıstanda da eyni fikirdədirlər. Bizim dostluğumuz, qardaşlığımız bu ağır vəziyyətdən sonra daha da gücləndi.

**- Qəzadan sonra AZAL şirkəti Rusiyanın bəzi şəhərlərinə uçuşları dayandırdı. Bəs, bu qərarın verilməsi hansı zərurətdən irəli gəldi və hazırda işlər necə gedir?**

- Bu göstərişi mən vermişəm və bunun əsas səbəbi təbii ki, təhlükəsizlik məsələləridir. Çünki Rusiyanın bir çox şəhərlərində vaxtaşırı hava məkanı bağlanır, orada xüsusi əməliyyat rejimi tətbiq edilir. Onlar buna "kavyor əməliyyatı" deyirlər və birinci sualda dediyim məsələlərə qayıdarkən onu da bildirməliyəm. Bir şeyin də üstü açılmalıdır ki, o "kavyor əməliyyatı" nə vaxt elan edildi? Çünki bizdə olan məlumata görə, artıq təyyarəmiz xarici təsirə məruz qaldıqdan sonra o "kavyor əməliyyatı" elan edilmişdi. Yəni, əgər bu belədirsə, bir daha göstərir ki, yerli xidmətlər bu məsələni ört-basdır etmək üçün etdilər.

AZAL-ın uçuşlarına gəldikdə, AZAL Rusiyanın yeddi şəhərinə öz uçuşlarını dayandırdı, müddətsiz olaraq. Eyni zamanda, biz Rusiya aviaşirkətlərinin üç Rusiya şəhərindən Azərbaycana uçuşlarını da dayandırmışıq. Deməli, toplam 10 şəhərlə bizim hava bağlantımız indi dayandırılıb və yenə də deyirəm, burada, ilk növbədə, təhlükəsizlik məsələləri ön plandadır. Biz sərnişinlərimizin təhlükəsizliyini həmişə ön sırada olan məsələ kimi qəbul etmişik və beləliklə, bu vəziyyət elan edildi. Biz nəyi ediriksə açıq-aydın edirik və yenə də deyirəm, bu qərar qəbul edildi və nə vaxt bu uçuşlar bərpa ediləcək, yoxsa yox, xüsusilə Qroznı şəhərinə bərpa ediləcək, yoxsa yox? Çox güman ki, yox. Amma bunu həyat göstərər və Rusiya hava məkanının təhlükəsizlik məsələləri də əlbəttə ki, nəzərə alınacaqdır.

**- Cənab Prezident, bəs ümumilikdə Azərbaycanın baş verənlərlə bağlı Rusiyadan gözləntiləri və tələbləri nədən ibarətdir?**

- Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur. Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək.

**- Çox sağ olun, cənab Prezident. Suallarımıza ətraflı şəkildə cavab verdiyiniz üçün minnətdarıq.**

- Sağ olun.

# Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2024-cü il

# Azərbaycan Respublikası müdafiə nazirinin “31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” və “Yeni il bayramı” münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il bayramı" münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, şərəfli xidmətinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş bu əlamətdar gün dünya azərbaycanlılarının birliyini, həmrəyliyini təcəssüm etdirir. Xalqımızın xoşbəxt gələcəyi, ölkəmizin müstəqilliyi, suverenliyi naminə həmrəyliyin nə qədər vacib olduğunu bir daha xatırladır.

Tarixi sınaqlardan qəhrəmanlıqlarla çıxmış dünya azərbaycanlılarının həmrəyliyinin, xalqımızı uğurlara aparan azərbaycançılıq ideyasının rəmzi olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizin nailiyyətləri həmvətənlərimizin müstəqil dövlətimizin ətrafında birləşməsini təmin edən mühüm amildir.

Ulu Öndərin siyasi kursunu ordu quruculuğu sahəsində də uğurla davam etdirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin apardığı daxili və xarici siyasət, ordumuzun kadr hazırlığı, müasir silah və texnikalar ilə təchiz edilməsi və döyüş potensialının artırılması istiqamətində həyata keçirdiyi layihələr nəticəsində Azərbaycan Ordusu müzəffər və qalib ordu statusuna sahib olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə dövlətimizin tərəqqisi və beynəlxalq nüfuzunun artırılması naminə xalqımızı daha da sıx birləşdirərək uğurlu gələcəyə inamını möhkəmləndirmişdir. Ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilmiş, milli maraqları, əhalisinin rifah və dəyərləri qorunan respublikamız regionun lider dövləti olmuşdur.

Hər zaman olduğu kimi bu bayram günündə ölkəmizin müstəqilliyinin, suverenliyinin qorunması və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərimizi hörmət və ehtiramla yad edir, unudulmaz xatirələrini əziz tuturuq. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman şəhidlərimizin ailə üzvləri, hərbi əməliyyatlar zamanı sağlamlığını itirmiş hərbi qulluqçularımız daimi qayğı ilə əhatə olunmuşdur. Şəhid ailələrini və torpaqlarımızın müdafiəsində əzmlə dayanaraq hərbi əməliyyatlar zamanı sağlamlığını itirmiş hərbi qulluqçularımızı "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il bayramı" münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə daim sadiq qalacaq, Vətən müharibəsində əldə olunan qələbədən ruhlanaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Bir daha "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il bayramı" münasibətilə hər birinizi ürəkdən təbrik edir, qarşıdan gələn yeni 2025-ci ildə Sizə möhkəm cansağlığı, uzun ömür, sevinc dolu firavan günlər, ailə səadəti, şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

# Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Vladimir Putin dekabrın 25-də Bakı-Qrozni marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib, bu qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını dilədiyini deyib.

Prezident İlham Əliyev "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyasının hava məkanında olan zaman kənar fiziki-texniki müdaxiləyə məruz qaldığını və idarəetməsini tam itirdiyini, Qazaxıstanın Aktau şəhərinə doğru yönləndirildiyini, yalnız pilotların şücaəti və peşəkarlığı sayəsində qəza enişi edə bildiyini qeyd edib. Dövlətimizin başçısı təyyarənin gövdəsində çoxsaylı dəliklərin olmasının, hələ havada olarkən sərnişinlərin və heyət üzvlərinin təyyarənin göyərtəsini dəlib içəri daxil olan yad hissəciklərlə yaralanmalarının, bu xüsusda, sağ qalan təyyarə bələdçilərinin və sərnişinlərin ifadələrinin kənar fiziki-texniki müdaxilə faktını təsbit etdiyini vurğulayıb.

Söhbət zamanı dövlət başçıları bu faciənin bütün təfərrüatlarının ciddi və hərtərəfli araşdırılmasını, günahkarların məsuliyyətə cəlb olunmasını müzakirə ediblər.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin təklifi ilə bu qəzanın səbəblərinin hərtərəfli araşdırılması üçün beynəlxalq ekspertlərdən ibarət heyət təşkil edilib və bu heyət artıq fəaliyyətə başlayıb.

Dövlət başçıları, həmçinin faciə ilə əlaqədar başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılacağını və mütəmadi qaydada ictimaiyyətə məlumat veriləcəyini vurğulayıblar.

* * *

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı zamanı dövlət başçıları "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması ilə bağlı məsələlərin müzakirəsini davam etdiriblər.

# Psixoloqlarla “Koqnitiv Davranış Terapiyası” mövzusunda təlim keçirilib



Azərbaycan Ordusunda fəaliyyət göstərən psixoloqların peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin lektoriya zalında "Koqnitiv Davranış Terapiyası" (KDT) mövzusunda təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Türkiyə Respublikasından dəvət edilmiş klinik psixoloq dr.Berkan Eskiili koqnitiv nəzəriyyə və koqnitiv modelə giriş, KDT-nin əsas anlayışlarını və texnikalarını, müxtəlif psixoloji pozuntular (depressiya, təşviş pozuntusu, fobiya və s.) zamanı bu müalicə üsulunun tətbiqi ilə bağlı məlumatları dinləyicilərə çatdırıb. Həmçinin KDT seansları zamanı psixoloqların diqqət yetirməli olduğu məqamlara aydınlıq gətirib. Təlim zamanı dinləyicilərin iştirakı ilə praktik çalışmalar yerinə yetirilərək əldə olunan biliklər daha da möhkəmləndirilib.

Təlim zamanı dinləyicilər disfunksional fikirlər, davranış və emosiyalara bağlı olan problemlərin həllinə yönələn psixoterapevtik müalicə üsulunun baza biliklərinə yiyələniblər.

Psixologiya sahəsində daim baş verən yenilikləri nəzərə alaraq bu cür təlimlərin keçirilməsi orduda xidmət edən psixoloqların peşəkarlıq səviyyəsinin artırılmasında müstəsna əhəmiyyətə malikdir.

İnteraktiv formada keçirilən təlim zamanı terapiyanın hərb sahəsində tətbiqi ilə bağlı dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

# Müdafiə Nazirliyinin rəhbər heyəti bayram ərəfəsində hospitalı ziyarət edib







Dekabrın 30-da Müdafiə Nazirliyinin rəhbər heyəti Baş Klinik Hospitalı ziyarət edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzülərək xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalın tibb personalı və burada müalicə olunan hərbi qulluqçularla görüşüb, onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbriklərini çatdırıb.

Nazirliyin rəhbər heyəti hərbi qulluqçuların müalicə prosesi ilə maraqlanıb, onların tezliklə sağlamlıqlarına qovuşaraq Ordu sıralarında xidmətlərini davam etdirmələrini arzulayıb və şəxsi heyətə bayram hədiyyələri təqdim edib.

Baş Klinik Hospitalın peşəkar tibb personalının xidmətləri yüksək qiymətləndirilib.

# Dövlət qurumlarının nümayəndələri ilə seminar keçirilib







Bakı Hərbi Kollecində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Ombudsman Aparatı, Müdafiə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil, Səhiyyə, Gənclər və İdman, Mədəniyyət nazirlikləri, Hərbi Prokurorluq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Bakı Şəhər və Rayon İcra hakimiyyətlərinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbələrinin nümayəndələrinin iştirakı ilə seminar keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, seminar Ümummilli Lider Heydər Əliyevin, Vətən uğrunda şəhid olanların və 25 dekabr 2024-cü il tarixində baş vermiş aviaqəza nəticəsində həlak olanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Prezident Administrasiyası Kommunikasiya siyasəti sektorunun müdiri Cavid Musayev düzgün kommunikasiya siyasətinin vahid səs prinsipi əsasında qurulmasının vacibliyini vurğulayıb. Qurumların kommunikasiya strategiyalarının daha da təkmilləşdirilməsi məqsədilə qarşılıqlı əlaqədə müvafiq tədbirlərin görülməsi, proaktiv və reaktiv fəaliyyətlərin düzgün və səmərəli planlanmasının zəruriliyini qeyd edib.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Anar Eyvazov çıxışında nazirliyin Kommunikasiya Strategiyası ilə bağlı ətraflı məlumat verib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan islahatlar və tətbiq edilən yeniliklər barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində görülən işlərdən danışıb.

Tədbirdə, həmçinin kommunikasiya sahəsində görülən işlər, qarşıya çıxan problemlər və onların həlli yolları müzakirə edilib. Bu seminarın kommunikasiya sahəsində əməkdaşlığın və koordinasiyanın daha da gücləndirilməsi üçün mühüm platforma olduğu qeyd olunub.

Qoşun (qüvvə) növləri, birliklər, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş üzrə məsul şəxslərinin də iştirak etdiyi seminarın sonunda ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı suallar cavablandırılıb və mövzu ilə bağlı təkliflər dinlənilib.

# Azərbaycan və Serbiya arasında ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb




Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi rəisinin rəhbərlik etdiyi nümayəndə heyəti hərbi əməkdaşlıq danışıqlarının aparılması məqsədilə Serbiya Respublikasına səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Serbiya Respublikası müdafiə nazirinin köməkçisi cənab Predrag Bandiç tərəfindən qəbul edilib, daha sonra hər iki ölkənin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin nümayəndələri arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı tərəflər arasındakı hərbi əməkdaşlığın cari vəziyyəti təhlil edilib və inkişaf perspektivləri müzakirə olunub, eləcə də qarşılıqlı maraq doğuran mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb. Bu xüsusda 2024-cü il üçün hərbi əməkdaşlıq planında nəzərdə tutulmuş fəaliyyətlərin implementasiyasından məmnunluq ifadə edilib.

Səfər proqramına əsasən, nümayəndə heyəti Serbiya Respublikasının Sülhməramlı Əməliyyatlar Mərkəzini ziyarət edib və mərkəzin fəaliyyəti istiqamətləri ilə tanış olub.

Rəsmi fəaliyyətlərin sonunda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Serbiya Respublikasının Müdafiə Nazirliyi arasında 2025-ci il üçün hərbi əməkdaşlıq Planı" imzalanıb.

# HHQ-də "Zabit ixtisas kursu"nun növbəti buraxılış mərasimi keçirilib



2024-cü ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) Təlim və Tədris Mərkəzində "Zabit ixtisas kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Mərasimdə məzunlara HHQ komandanının təbriki çatdırılaraq, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulanıb. Bu cür kursların hərbi qulluqçuların bilik və bacarıqlarının təkmilləşdirilməsinə, peşəkarlıq səviyyəsinin artırılmasına müsbət təsiri qeyd olunaraq əhəmiyyəti vurğulanıb.

Çıxışlardan sonra kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub, kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

# "Ehtiyat zabit hazırlığı kursu"nun buraxılış mərasimi keçirilib





Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda "Ehtiyat zabit hazırlığı kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə iştirak edən Milli Müdafiə Universitetinin rəhbərliyi və zabit kollektivi institutun həyətində ucaldılan Heydər Əliyevin büstü önünə və şəhidlərin xatirə kompleksinə gül dəstələri qoyub, öz ehtiramlarını nümayiş etdiriblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Buraxılış mərasimində çıxış edən Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov Ali Baş Komandanın rəhbərliyi ilə hərbi təhsil sahəsində aparılan islahatlardan danışıb, 23 ixtisas üzrə zabit rütbəsi almış məzunları təbrik edərək gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonra general-mayor G.Əbdülov təhsildə fərqlənənlərə "leytenant" hərbi rütbəsini və sertifikatları təqdim edib.

Məzunlar adından çıxış edən kurs birincisi leytenant İlkin İrzayev onlara göstərilən diqqət və qayğıya görə rəhbərliyə, eləcə də əməyi keçən bütün professor və müəllim heyətinə öz təşəkkürünü bildirib, zabit peşəsini seçdiyinə görə qürur duyduğunu ifadə edib. Kurs müddətində qazandıqları bilikləri və praktiki vərdişləri xidmət yerlərində tətbiq edəcəklərinə, üzərilərinə düşən vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə söz verib.

Sonda Milli Müdafiə Universitetinin akademik və rəhbər heyəti məzunlarla xatirə şəkli çəkdirib.

# Hərbi qulluqçulara daimi mənzillərin verilməsi üzrə tədbirlər davam etdirilir





Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 28 dekabr 2011-ci il tarixli Fərmanının icrasının təmin edilməsi məqsədilə 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara (hərbi xidmətdə olan, ehtiyata buraxılmış hərbi qulluqçular və ya onların varislərinə) daimi mənzillərin verilməsi prosesi mərhələli şəkildə davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara (hərbi xidmətdə olan, ehtiyata buraxılmış hərbi qulluqçular və ya onların varislərinə) verilən daimi mənzillərin müəyyənləşdirilməsi ilə bağlı dekabrın 24-də Bakı Hərbi Kollecində püşkatma mərasimi keçirilib.

Mərasimdə Müdafiə Nazirliyinin müvafiq qurumlarının nümayəndələri, xidmətdə və ehtiyatda olan bir qrup hərbi qulluqçu və ailə üzvləri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğılarının həlli istiqamətində mühüm addımların atıldığını qeyd ediblər. Xüsusi olaraq vurğulanıb ki, bu istiqamətdə görülən işlər hərbi qulluqçuların ruh yüksəkliyinin artırılmasında mühüm faktorlardan biridir.

Daha sonra mənzillər püşkatma yolu ilə növbəlik prinsipinə əsasən hərbi qulluqçular arasında bölüşdürülüb.

Qeyd edək ki, şəffaflıq və ədalətlilik prinsipi, o cümlədən hərbi qulluqçuların ailə tərkibi nəzərə alınmaqla təqdim ediləcək mənzillər seçim əsasında Bakının Hövsan qəsəbəsi və Sumqayıt şəhərində yerləşir.

# "Korrupsiyaya qarşı mübarizə" seminarı keçirilib



Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin lektoriya zalında "Korrupsiyaya qarşı mübarizə" mövzusunda seminar təşkil olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, seminarda Müdafiə Nazirliyi və Hərbi Prokurorluğun nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların, eləcə də 25 dekabr 2024-cü il tarixdə aviaqəzada həlak olanların xatirələri bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Ordusunda korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər, mövcud problemlər və onların həlli yolları müzakirə edilib. Bildirilib ki, bu cür seminarların keçirilməsi korrupsiyaya qarşı mübarizə tədbirlərinin səmərəliliyinin artırılmasında vacib bir addımdır.

Sonda seminar iştirakçılarını maraqlandıran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# "Çin dili" kursunun buraxılış mərasimi keçirilib




Milli Müdafiə Universiteti Hərbi İdarəetmə İnstitutunun Xarici dil mərkəzində "Çin dili" kursunun buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Hərbi İdarəetmə İnstitutunun rektoru polkovnik Elnur Ələsgərli Azərbaycan və Çin arasında hərbi təhsil sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edib. Keçirilən kursun əhəmiyyətindən danışan polkovnik E.Ələsgərli kursu müvəffəqiyyətlə başa vuran hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonra Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi polkovnik Vanq Lei kursun təşkilinə və tədbirin ərsəyə gəlməsində əməyi olan Hərbi İdarəetmə İnstitutunun professor-müəllim və zabit heyətinə minnətdarlığını bildirib.

Həmçinin çıxışlarda bu cür kursların iki dövlət arasında hərbi əlaqələrin genişlənməsində vacib rolu olduğu vurğulanıb.

Qeyd olunub ki, bu dilin öyrənilməsi ilə hərbi qulluqçularımız Çin Xalq Respublikasında müxtəlif ixtisaslar üzrə keçiriləcək kurslarda iştirak edəcək, bilik və bacarıqlarını daha da artıracaqlar.

Çıxışlar başa çatdıqdan sonra kurs iştirakçılarına sertifikatlar təqdim olunub.

# Həmrəylik milli birlikdir, birlik - məğlubedilməzlik

*Həmrəylik eyni fikirli olmaqdır. Vətən naminə, dövlət naminə, dövlətçilik naminə düşüncələrin də eyniliyidi, fəaliyyətin də mütəşəkkilliyidi.*

*Dövlətlər yaranandan, torpağa sərhədlər düşəndən, torpaq sərhədlər boyunca müdafiə olunandan belədi.*

*Ötən əsrin sonlarında Ermənistan Azərbaycandan ərazi iddiasına düşəndə xalqın etirazı həmrəylik yaratdı. Xalqın həmrəyliyi milli-azadlıq hərəkatını kükrətdi, həmrəylik milyonların Vətən sevgisinin uvertürası oldu. Moskva 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıda və daha bir neçə şəhərdə faciə törətsə də, yüzlərlə vətənsevər qətlə yetirilsə də, xalqın mübarizə əzmi sarsılmadı, həmrəylik 1991-ci ilin 18 oktyabr qətiyyətini tarixləşdirdi - Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Bu da həmrəyliyin təzahürü idi...*

*İkinci Qarabağ müharibəsi başladı. Bu müharibə xalqın müharibəsi oldu. Xalq-ordu münasibətləri də qələbəni təmin edən amillərdən biri oldu - xalq sərkərdəsinin ətrafında sıx birləşdi. Bu da tarixi bir həmrəylik oldu. Azərbaycan Ordusu tarixi Zəfər qazandı. 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror əməliyyatında ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu, Azərbaycanımızın dövlət sərhədlərinin bu üzündə həmrəylik Dövlət Bayrağına sevginin işığı ilə qoşalaşıb tarix yaratdı...*

*31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu günü hərbi qulluqçular da böyük könül xoşluğuyla, dövlətə, dövlətçiliyə sədaqətlə qarşılayırlar. Bu gün Hərbi Anda - Vətənə sədaqətlə xidmət edənlər deyirlər ki:*



Ordumuzun sıralarında xidmət edən hər bir hərbçi adına söz verirəm ki, biz öz müqəddəs borcumuzu hər zaman şərəflə yerinə yetirəcəyik.



**Tibb xidməti mayoru Cavid İbrahimov**:

- Mən həm həkim kimi, həm də hərbçi kimi xidmət edirəm. Bu xidmətlər bir-birini tamamlayır. Eyni məqsədin, eyni vəzifə borclarının icraçısıyam. 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində bütün qoşun növləri iştirak edirdi. Hərbi həkimlərimiz də döyüş meydanında döyüşlərdə yaralananlarımızın həyatı uğrunda döyüşürdü. Yaralananların müalicəsini təşkil edirdi, ağır yaralıların təxliyəsinin iştirakçısı olurdu.

Bu müharibədə səhra hospitallarının əvəzsiz xidmətləri olub. Onlarla tibb xidməti zabiti, digər dərəcələrdən olan tibb personalı böyük peşəkarlıq göstərib. Hərbi tibb işçilərindən yaralananlar da olmuşdu. Onlarla tibb xidməti zabiti, tibb personalı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunub. Həmkarlarımdan birinin obrazlı şəkildə dediyi bir fikri unutmamışam: "Hərbi həkimlər müharibədə döyüşən ordunun sağlamlıq iksiri oldu". Gözəl deyib. Azərbaycanda həkimlik, həkimlər iksir olaraq qalsın. Ancaq müharibəsiz şəraitdə...

İkinci Qarabağ müharibəsi təsdiqlədi ki, həqiqətən də, "Sel bir olsa, daş oynadar yerindən, el bir olsa, zərbi kərən sındırar". Bu atalar məsəlində bir olma, həmrəylik anlamındadır.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bütün həmkarlarımı, həmkarlarımın timsalında Azərbaycan Ordusunun şəxsi heyətini Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edir, hər birinə cansağlığı arzulayıram.

**Baş leytenant Nihad Əlizadə:**

- 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bütün xalqımızı səmimi-qəlbdən təbrik edirəm. Bu əlamətdar gündə dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımızın birliyini və həmrəyliyini qeyd edirik. Azərbaycan Ordusunun zabiti olaraq, xalqımızın güc mənbəyi olan ordumuzun qüdrətindən qürur duyuram. Şübhəsizdir ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ordumuz hazırda dünyanın ən güclü ordularından birinə çevrilib.

Xüsusilə, komando hərbi hissələrinin yaradılması ilə ordumuzun döyüş qabiliyyəti və operativliyi daha da möhkəmlənib. Mənim də xidmət etdiyim bu bölmələr yüksək peşəkarlığı və döyüş hazırlığı ilə xalqımızın inam və güvən yeridir.

Əziz xalqımız, unutmayın ki, biz hərbçilər sizin təhlükəsizliyinizin, firavanlığınızın ke-



şiyində dayanan dayaq və güvənc nöqtəsiyik. Xalqın və ordunun birliyi, qarşılıqlı dəstəyi bizim ən böyük üstünlüyümüzdür. Yeni ildə də biz hərbi qulluqçular Vətənə olan sevgimizi xidmətimizlə sübut etməyə davam edəcəyik. Mən də bu qüdrətli ordunun bir nümayəndəsi olaraq qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti Vətənimizin müdafiəsi və suverenliyinin qorunması uğrunda istənilən döyüş əməliyyatını yerinə yetirməyə hər zaman hazır və qadirdi.

Yeni ildə xalqımıza möhkəm cansağlığı, ailə səadəti və uğurlar arzulayıram. Qoy, 2025-ci il ölkəmiz üçün sülh, əmin-amanlıq və tərəqqi ili olsun. Bayramınız mübarək!"

**Baş leytenant Hafiz Ələkbərov:**

- Azərbaycan Ordusu xalqımızın milli qürur mənbəyidir. Ordu quruculuğu sahəsində əldə etdiyimiz böyük nailiyyətlər müstəqilliyimizin və suverenliyimizin ən güclü təminatıdır. Ümummilli Liderimiz Heydər Əliyevin təməlini qoyduğu ordu quruculuğu siyasəti bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf etdirilərək, dünyanın ən güclü və modern ordularından birinə çevrilmişdir.

Azərbaycan Ordusunun bütün qoşun növləri, o cümlədən Hərbi Hava Qüvvələrimiz bu inkişafın bariz nümunəsidir. Xüsusi peşəkarlıq, müasir texnologiya və yüksək döyüş hazırlığı ilə seçilən Hərbi Hava Qüvvələrimiz Vətənimizin səmalarını etibarlı şəkildə qoruyur. Vətən müharibəsində qazandığımız möhtəşəm qələbədə Hərbi Hava Qüvvələrinin müasir texnikası və şəxsi heyətin rəşadəti mühüm rol oynamışdır. Biz bu gün qürurla deyə bilərik ki, Hərbi Hava Qüvvələrimiz düşmənə həm döyüş meydanında, həm də psixoloji müstəvidə sarsıdıcı zərbələr endirərək xalqımızın şərəfini uca tutmuşdur.

Ordumuzun bu səviyyəyə çatmasında göstərdiyi diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandanımıza xüsusi təşəkkür edir, onun rəhbərliyi ilə dövlətimizin daha da güclənəcəyinə böyük inam bəsləyirik. Azərbaycan hərbçisi üçün bu diqqət təkcə maddi deyil, həm də mənəvi güc mənbəyidir. Biz - Hərbi Hava Qüvvələrinin hərbi qulluqçuları olaraq, hər an Vətənin müdafiəsində dayanmağa və onun etibarını qorumağa hazırıq.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi münasibətilə, başda şəhid ailələri olmaqla, xalqımızı səmimi-qəlbdən təbrik edirəm. Bu əlamətdar günlər bizim üçün təkcə yeni ümidlərin başlanğıcı deyil, eyni zamanda, xalqımızın həmrəyliyinin, birliyimizin



və milli dəyərlərimizin daha da möhkəmləndiyi bir dövrün rəmzidir.

Vətənimizin azadlığı və müstəqilliyi uğrunda çiyin-çiyinə mübarizə aparan, səngərlərdə əzmlə xidmət edən hər bir hərbi qulluqçu üçün xalqımızın dəstəyi, sevgisi və duaları ən böyük güc mənbəyidir. Biz - Azərbaycan Ordusunun nümayəndələri olaraq, Vətənimizin müdafiəsini təmin etmək, sərhədlərimizin təhlükəsizliyini qorumaq və gələcək nəsillərə qüdrətli bir Azərbaycan miras qoymaq üçün var gücümüzlə çalışırıq.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü xalqımızın tarixində xüsusi bir yer tutur. Bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı milli birliyimizin, dilimizin, mədəniyyətimizin və tariximizin daşıyıcısı kimi eyni amallar uğrunda birləşir. Bu birlik bizim ən böyük sərvətimizin, qüdrətimizin təməlidir.

Bizim birliyimiz, gücümüz və iradəmiz bu gün bütün dünyaya nümunədir. Ordumuzun əldə etdiyi uğurlar, ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuz və milli həmrəyliyimiz hamımız üçün fəxr mənbəyidir. Biz qələbələrimizlə bir daha sübut etdik ki, Azərbaycan xalqı həm döyüş meydanında, həm də diplomatik arenada əzm və iradə nümayiş etdirərək tarix yazmağa qadirdir.

Yeni ildə hər birimizə cansağlığı, ailə səadəti, işlərimizdə uğurlar və ən əsası Vətənimiz Azərbaycan naminə müvəffəqiyyətlər arzulayıram. 2025-ci il ölkəmizə daha böyük nailiyyətlər, hər bir ailəyə sevinc və xoşbəxtlik gətirsin.

**Leytenant Nurəddin Hüseynov**:

- Orta məktəbdə oxuyanda müəllimimiz Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün necə yarandığı haqqında da danışmışdı. Ulu Öndər Heydər Əliyevin təklifi ilə belə bir günün təsis olunması, əlbəttə ki, xalqın birliyini təmin edəcəkdi. Naxçıvandan başlayan həmrəylik bu gün bütün dünyanı əhatə edir. 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Müəllimimiz bu haqda da danışmışdı. Onda hamımız əmin olmuşduq ki, həmrəylik üçün sərhəd olmur. Bu Qurultay sərhədləri aşaraq xalqın düşüncələrinin, fəaliyyətinin həmrəyliyini formalaşdırdı.

İkinci Qarabağ müharibəsindən əvvəl xalq da, ordu da Ali Baş Komandanın döyüş əmri verməsini istəyirdi. Xalq da, ordu da işğalı sonlandırmaq üçün ədalətli müharibənin başlanmasını arzulayırdı. İşğalın sonlandırılması, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması və suverenliyin bərqərar edilməsi xalqla ordunu həmrəyləşdirmişdi. Bu həmrəylik İkinci Qarabağ müharibəsində qələbə qazanılmasında əsas amillərdən biri oldu.

Mən də qalib ordumuzun zabiti olaraq Azərbaycanın dəniz sərhədlərini müdafiə edənlərin sırasındayam. Hərbi Anda sədaqətlə xidmət edirəm, üzərimə düşən vəzifələri məsuliyyətlə yerinə yetirirəm. İkinci Qarabağ müharibəsində Hərbi Dəniz Qüvvələri də iştirak edib, şücaətlə döyüşüb, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunub. Bu qürur həm də Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin qürurudur.

Hərbi Dəniz Qüvvələrinin komandanlığını, Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin timsalında ordumuzun bütün hərbi qulluqçularını, mülki işçilərini Həmrəylik Günü münasibətilə təbrik edirəm, hər birinə cansağlığı, uğurlar arzulayıram. Əminliklə bildirirəm ki, Azərbaycanın dəniz sərhədləri bundan sonra da ciddi müdafiə olunacaqdır.

(Ardı 7-ci səhifədə)

# Həmrəylik milli birlikdir, birlik - məğlubedilməzlik



(Əvvəli 6-cı səhifədə)

**Əsgər Amin Şükürlü:**

- Azərbaycan Ordusunun əsgəri olmaq, döyüş növbətçiliyi aparmaq, Vətənimizin müdafiəsində qətiyyətlə dayanmaq mənim üçün ikiqat sevincdir və qürurdur. Həmişə arzulamışam ki, əsgər olum, torpaqlarımızın keşiyində dayanım.

Qalib Azərbaycan Ordusunun əsgəri olmaq hamı üçün şərəfli hissdir. İllər uzunu torpaqlarımızın 20 faizi Ermənistan ordusunun işğalı altında olub. Həmin illərdə mən uşaq olsam da, yaşamaq ağır idi. Vətənimizin bir hissənin işğal altında olmasından tək mən yox, xalqımız bütövlükdə əziyyət çəkib. Bir milyondan artıq soydaşımız doğma dədə-baba yurdundan didərgin salınmışdı. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun cəsur oğulları torpaqlarımızı azad etdilər, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Bu gün bizim də üzərimizə çox böyük məsuliyyət düşür.

Biz düşməni yenidən fəallaşmağa qoymarıq. Bunun üçün daim döyüş və mənəvi hazırlığımızı artırmalıyıq. Döyüş növbətçiliyimizdə hər an ayıq-sayıq olmalıyıq.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni il bayramını burada qarşılamaq qismətimdədi. Ata-anamı, qardaş-bacılarımı və xalqımızı hər iki bayram münasibətilə təbrik edirəm. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü Ulu Öndər Heydər Əliyev tarixləşdirib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirərək xalqımızı və dövlətçiliyimizi daha da inkişafa aparır. Qarşıdan gələn Yeni ilin xalqımıza düşərli, uğurlu il olmasını arzulayıram.

**Əsgər Ümid Hümbətov:**

- Əziz ailəm, qohumlarım, dostlarım və silah yoldaşlarım! Sizi qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə sağlamlıq, xoşbəxtlik və uğurlar arzulayıram. Bu əlamətdar günlərdə uzaqda olsam belə, mənəvi olaraq sizin yanımda olduğunuzu hiss etmək mənim üçün ən böyük hədiyyədir. Əziz ailəm! Siz mənim həyatımın ən dəyərli hissəsisiniz. Bu günlərdə sizin yanınızda ola bilməsəm də, ürəyim hər zaman sizinlədir. Mən Vətən torpaqlarını qorumaq üçün buradayam və bu müqəddəs vəzifəmi yerinə yetirərkən sizin sevginiz və dəstəyiniz mənə böyük güc verir. Hər zaman mənimlə fəxr etdiyinizi bilmək mənim üçün ən böyük motivasiyadır. Yeni ildə hər birinizə sağlamlıq, rifah və arzuladığınız xoşbəxt anları yaşamağı diləyirəm. Bu günlərdə, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə birlik və həmrəylik ruhunu daha çox hiss edirəm. Yeni ilin xalqımız üçün xoşbəxtlik, sevgi və uğur dolu keçməsini arzu edirəm. Dəyərli silahdaşlarım, biz bir-birimizin qardaşıyıq. Bu müqəddəs torpaqlarda, əzəmətli dağlarda bir-birimizə dəstək olaraq Vətənimizin keşiyində dayanmaq hər birimiz üçün böyük qürurdur. Sizinlə çiyin-çiyinə xidmət etmək mənim üçün fəxrdir. Hər birimizin birliyi, iradəsi və fədakarlığı xalqımızın firavanlığını təmin edir. Yeni il bizə daha böyük nailiyyətlər gətirsin və hər birimiz üçün uğurlu olsun!

Əziz soydaşlarımız, harada yaşamağımızdan asılı olmayaraq azərbaycanlı olmaq hər birimiz üçün qürur mənbəyidir. Yeni ildə Vətənimizə və xalqımıza daha böyük nailiyyətlər arzulayıram. Hər birinizə bir daha xoş arzularımı çatdırıram. Yeni il sevinc, firavanlıq və gözəl xatirələrlə dolu olsun! Mən Vətənimə xidmət etməyi böyük şərəf hesab edirəm və sizin dualarınızla özümü daha güclü hiss edirəm.



**Əsgər Ayaz Məmmədov:**

- Əziz və hörmətli şəhid ailələri, ailə üzvlərim, qohumlarım, dostlarım və xidmət yoldaşlarım!

Sizi ürəkdən salamlayır, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi təbriklərimi çatdırmaq istəyirəm. Bu əziz günlərdə hər birinizə sağlamlıq, xoşbəxtlik, əmin-amanlıq və firavanlıq arzulayıram.

Arzu edirəm ki, həyatınızda həmişə sevinc və uğur dolu anlar çox olsun. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bizim üçün sadəcə bir bayram deyil, eyni zamanda, birliyimizin və bütövlüyümüzün rəmzidir. Bu gün dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı milli birliyimizi, dəyərlərimizi və mədəniyyətimizi qorumağa və gələcək nəsillərə ötürməyə töhfə verir. Bu birlik ruhu bizə güc verir və düşmənlərimizin öhdəsindən gəlməyə kömək edir.

Vətənimizin müdafiəsində olmaq, bu bayramları burada qeyd etmək mənim üçün böyük bir şərəfdir. Bilirik ki, xalqımız hər zaman bizə güvənir.



Sizin dəstəyinizi daim qəlbimizdə hiss edirik.

Dəyərli xidmət yoldaşlarım, sizinlə bir cəbhədə, eyni amal uğrunda mübarizə aparmaq mənim üçün qürur mənbəyidir. Sizinlə keçirdiyim hər gün mənə Vətən sevgisini, həmrəyliyi və əsil dostluğu daha dərindən hiss etdirir. Arzulayıram ki, xidmətimiz hər zaman uğurlu və təhlükəsiz keçsin. Yeni il hər birimiz üçün sağlamlıq, güc və qələbə dolu günlərlə yadda qalsın. Yeni il hər birimiz üçün yeni başlanğıcların, ümidlərin və uğurların ili olsun. Gələcək illərdə də həmrəylik və dostluq bağlarımız daha da möhkəmlənsin, Vətənimizə xidmət etməkdən qürur duymağa davam edək. Sizi bir daha ürəkdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram. Bayramınız mübarək olsun!

**Əsgər Rafiq Başirov:**

- Hələ uşaqkən ən çox eşitdiyim sözlərdən biri də; - əsgərlik kişilik məktəbidir, - olub. Hərbi xidmətə getmək üçün tələssəm də, vaxt gec gəlirdi. İstəyirdim ki, kişilik məktəbini mən də keçim. Bu gün həmin məktəbin şagirdiyəm və çox qürurluyam. Hər bir insan üçün doğulub boya-başa çatdığı Vətəni müqəddəsdir. Xidmət etdiyim ərazilər uzun illər düşmən işğalı altında olub. Artıq rəşadətli ordumuz tərəfindən doğma yerlərimiz erməni işğalından azad edilib və biz bu ərazilərdə döyüş növbətçiliyi aparırıq. Olduğumuz mövqeləri silahdaşlarımla ayıq-sayıq qoruyuruq. Bizim başlıca məqsədimiz də budur.

Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il gəlir. Komandirlər bizi əvvəlcədən xəbərdar ediblər ki, bütün bayramlarda biz sayıqlığımızı əldən verməməliyik. Düşmən həmişə belə günlərdə öz çirkin niyyətlərini həyata keçirməyə çalışır. Biz isə düşmənə heç vaxt imkan vermərik ki, postumuza yaxın düşsün. Gecə-gündüz demədən növbə çəkirik.



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü xalqımızı birləşdirən ən ümdə bayramlardan biridir. Bu bayramı bizə Ümummilli Lider Heydər Əliyev bəxş edib. Müasir Azərbaycanın güclü, qüdrətli və daim inkişaf yolunu tutmaqda Ulu Öndərin müstəsna xidmətləri olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirməklə ölkəmizi daha da inkişaf etdirdi, pozulmuş ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə qalib ordular sırasında yer aldı. Bizə Zəfər Gününü bəxş edən ordumuzun güclənməsi üçün daim çalışmalıyıq.

Döyüş postundan xalqımızı, hərbçi qardaşlarımı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm.

**Əsgər Sərxan Əliyev:**

- İşğaldan azad olunmuş ərazilərimizdəki bölmələrdən birində xidmət edirəm. Çətin relyefli dağ şəraitində əsgər yoldaşlarımla birlikdə Vətənimizin keşiyini çəkməkdən qürur hissi keçiririk. Vaxtilə mən də arzulamışdım ki, torpaqlarımızın azadlığı uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edim. 44 günlük Vətən müharibəsi başlayanda orta məktəbdə təhsil alırdım. Hər gün ordumuzun keçirdiyi uğurlu döyüş əməliyyatları haqqında yeni-yeni xəbərləri izləyirdik. O günləri heç vaxt unutmayacam. Torpaqlarımız düşmən işğalından qarış-qarış azad olunurdu. Xalqımız ancaq qələbə xəbərləri eşidirdi. 10 noyabr 2020-ci ildə düşmən təslim oldu. Xalqımızın igid övladları şəhərlərimizdən, qəsəbələrimizdən, kəndlərimizdən erməni işğalçılarını qovdular. Uzun illik həsrətə son qoydular. Bu gün bölmələrimizin yerləşdiyi ərazilərdə üçrəngli Dövlət Bayrağımızın dalğalanması bizim xidməti məsuliyyətimizi daha da artırır. Çünki bu ərazilər mərd, igid oğullarımızın canı, qanı bahasına düşməndən təmizlənib. Vaxtilə düşmən işğalında qalan, o torpaqlarda bu gün Azərbaycan əsgəri şərəfli döyüş növbətçiliyi aparır. Fəxr edirəm ki, Vətənimizin müdafiəsində dayanan əsgərlərin sırasında mən də varam. İşğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-tikinti işləri aparılır. Məktəblər, xəstəxanalar, müasir tipli yaşayış binaları tikilir. İşğal və Zəfər muzeyləri yaradılacaq o yerlərdə. O zaman gələcək nəsillər öyrənəcəklər ki, torpaqlarımız 30 il ərzində erməni faşistlərinin işğalında qalıb, sonra xalqımızın mərd oğullarının sayəsində, şəhidlərimizin canı bahasına Zəfər qazanmışıq. Xalqımızın əziz bayramlarından olan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bütün əsgərlərimizi təbrik edir, hər birinə xidmətlərində uğurlar arzulayıram.





**Əsgər Toğrul Əbilli:**

- İşğaldan azad olunmuş ərazilərimizdə yerləşən bölmələrimizdə xidmət etmək Azərbaycan Ordusunun hər bir əsgəri üçün qürurvericidir. Artıq 4 ildən artıqdır ki, xalqımız, bütün dünya azərbaycanlıları əlamətdar tarixi günlərini, əziz bayramlarını Zəfər coşqusu, sevinclə qarşılayıb qeyd edirlər. Uzun illik yurd, torpaq həsrətinə son qoyulub. Soydaşlarımız əziz bayramlarını öz ata-baba yurdunda, doğma elində, obasında, isti ocağında keçirməyə başlayıblar. Bu xoşbəxt günləri xalqımıza bəxş edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev, ordumuzun igid, mərd oğulları, Vətənimizin bütövlüyü naminə canından keçən fədakar şəhidlərimizdir. Torpaqlarımızın azadlığı uğrunda canından keçən hər bir Vətən övladının şərəfli döyüş yolu bizə örnəkdir. Gələcək nəsillərə nümunədir. Biz qəhrəmanlığı onlardan öyrənirik. Xalqımız şəhid övladlarının xatirəsini daima ehtiramla yad edir.

İşğalçı Ermənistan hərbi birləşmələri üzərində qazanılmış tarixi Zəfərimiz bütün dünya azərbaycanlılarının Zəfəridir. 30 illik işğal dövründə doğma torpağından qaçqın düşən həmvətənlərimiz yurd acısı yaşadılar. Torpaq itkisinə dözməyib dünyasını dəyişənlər də oldu. Bu gün onların ruhu şaddır. Respublikamızın ərazi bütövlüyü, suverenliyi tam təmin olunub. İşğaldan azad olunmuş ərazilərimizdə rəşadətli ordumuzun bölmələri xidmət aparır, Vətənimizin müdafiəsində əzmlə dayanıb, gecə-gündüz keşiyini çəkir. Fəxr edirəm ki, mən də döyüş növbətçiliyini ordumuzun işğaldan azad etdiyi ərazilərimizdə aparıram. Bu hiss olduqca qürurludur. Buradan xidmət etdiyim bölmənin əsgərləri adından bütün dünya azərbaycanlılarını 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, onlara doğma Vətənimizin daha da çiçəklənməsi naminə həmrəy olmağı arzulayıram.

# "Təbiətçilər" mövzusunda viktorina keçirilib





*Ölkəmizdə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" kimi qeyd olunub. Hər yerdə olduğu kimi, hərbi təhsil ocaqlarında da təbiət sevərlər bu sahədə öz biliklərini sınamaqla töhfə veriblər.*

Milli Müdafiə Universitetinin nəzdində olan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə kursantlar arasında "Təbiətçilər" mövzusunda viktorina keçirilib. Liseyin Təbiət fənn bölməsinin fizika və kimya müəllimlərinin birgə hazırladıqları viktorinaya 1-ci və 2-ci kursun kursantlarından ibarət dörd komanda; "Şüa", "Qızıl", "Uran" və "Dalğa" cəlb olunub.

Bilik yarışmasının keçirilməsində əsas məqsəd şəxsi heyətin intellektual səviyyəsinin inkişaf etdirilməsi, dünyagörüşünün artırılması, həmçinin asudə vaxtın səmərəli təşkilidir.

Kursantlar "Təbiətçilər" adı altında "Yaşıl dünya naminə həmrəylik ili"nə qoşularaq təbiət elmləri üzrə öz biliklərini sınayıblar. Komandalar yarışda qalib gəlmək üçün verilən sualları daha tez və dolğun şəkildə cavablandırmağa çalışıblar.

Gərgin bilik mübarizəsi şəraitində keçən yarışmada az xal fərqi ilə "Dalğa" komandası birinci yerə layiq görülüb.

Viktorina başa çatdıqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev yarışı təşkil edən müəllimlərə təşəkkürünü bildirib. Qeyd edib ki, bu il ölkəmiz beynəlxalq əhəmiyyətli "COP29" tədbirinə ev sahibliyi edib. Ekologiyanı və təbiəti qorumaq naminə aparılan mübarizədə xalqımızın hər zaman öndə olduğunu vurğulayıb.

Polkovnik Anar Mirzəyev viktorinada iştirak edən bütün komandalara təşəkkürünü bildirib, qalib "Dalğa" komandasını təbrik edib.

**"Azərbaycan Ordusu"**

# Tank bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilib



*Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun tank bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, plana uyğun olaraq, həyəcan siqnalı ilə qaldırılan bölmələr daimi dislokasiya məntəqəsindən cəmləşmə rayonlarına çıxarılıb.

Təlimin növbəti mərhələsində ərazidə komanda məntəqələrində qərargahın qərar qəbuletmə prosesi həyata keçirilib, təlim-döyüş tapşırığına uyğun komandir heyətinin məruzələri dinlənilib.

Yekunda tank bölmələri ilə döyüş atışlı təlimin ssenarisinə əsasən, düşmənə yaxınlaşma, şərti düşmən hədəflərinin hərəkətdə və yerindən məhv edilməsi üzrə tapşırıqlar icra olunub.

Təlimin keçirilməsində əsas diqqət tank bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, hərbi qulluqçuların peşəkarlığının artırılması, döyüşdə tank bölmələrinin şəxsi heyətlə uzlaşmış fəaliyyətinin təmin edilməsinə yönəldilib.

# Ordu idman klubu Basketbol Liqasında növbəti qələbəyə imza atıb



Dekabrın 25-də Sərhədçi İdman Olimpiya Mərkəzində davam edən yarışlar çərçivəsində "Ordu" idman klubunun yığması "Lənkəran" komandası ilə görüşüb.

Qarşılaşma 48 xal fərqlə "Ordu" klubunun üstünlüyü ilə sona çatıb.

Oyunun yekunlarına əsasən, "Ordu" komandası 99:51 xal hesabı ilə qələbə qazanıb.

**"Azərbaycan Ordusu"**





# Xəbərlər: hadisələr, faktlar

## İsrail Slovakiyaya "Barak MX" hava hücumundan müdafiə sistemləri satacaq



İsrail və Slovakiya "Barak MX" hava hücumundan müdafiə sistemlərinin Bratislavaya satışına dair müqavilə imzalayıb.

"The Times of Israel" qəzeti xəbər verir ki, İsrailin Müdafiə Nazirliyi sövdələşməni əlamətdar hadisə adlandırıb və bunun silah ixracı sahəsində indiyədək Slovakiya ilə imzalanan ən böyük razılaşma olduğunu qeyd edib. Müqavilənin həcmi 560 milyon avrodur.

Qeyd edək ki, "Israel Aerospace Industries" şirkəti tərəfindən istehsal olunan "Barak MX" hava hücumundan müdafiə sistemi döyüş təyyarələri, helikopterlər, dronlar, qanadlı və taktiki raketlər də daxil olmaqla müxtəlif hava hədəflərini zərərsizləşdirmək üçün nəzərdə tutulub. "Barak MX" 35-150 kilometr məsafədəki hədəfləri vura bilən üç raket batareyası ilə təchiz edilib.

## Britaniyanın Müdafiə Nazirliyi: 10 mindən çox hərbçi döyüşə yararsızdır



Britaniya silahlı qüvvələrinin 10 mindən çox üzvü döyüş əməliyyatlarına tibbi baxımdan yararsız hesab edilir.

Bu barədə Böyük Britaniyanın Müdafiə Nazirliyi tərəfindən parlamentə təqdim olunan yazılı bəyanatda bildirilib.

Qeyd olunub ki, silahlı qüvvələrdə 99 min 560 nəfər tam döyüş qabiliyyətinə malikdir. Bununla yanaşı, 14 min 350 nəfər məhdud döyüş qabiliyyətlidir, 13 min 522 nəfər isə ümumiyyətlə döyüşə yararsızdır.

Bu o deməkdir ki, 14 min 350 nəfər yalnız müəyyən şərtlər altında döyüşdə iştirak edə bilər. Bu şərtlərə ekstremal hava şəraitindən, yüksək səs-küydən və ya kimyəvi maddələrdən uzaq qalmaq kimi tibbi tələblər daxildir.

Qeyd edək ki, bir müddət öncə müdafiə naziri Con Hili Britaniya ordusunun hazırkı vəziyyətdə müəyyən əməliyyatlar keçirmək iqtidarında olduğunu, lakin ölkəni düşmən hücumundan qorumaq və ya hər hansı bir işğalın qarşısını almaq iqtidarında olmadığını bildirmişdi.

## Avstriya İtaliya ilə əməkdaşlıq çərçivəsində 12 döyüş təyyarəsi alacaq



Avstriya İtaliya ilə əməkdaşlıq çərçivəsində 12 "Leonardo M-346FA" döyüş təyyarəsi alacaq.

Bu barədə Avstriyanın Müdafiə Nazirliyinin yaydığı press-relizdə deyilir.

"Avstriya İtaliya ilə hökumətlərarası müqavilə çərçivəsində 12 ədəd "Leonardo M-346FA" reaktiv təyyarəsi almağı planlaşdırır", - deyə məlumatda qeyd olunur. Həmin təyyarələr 2020-ci ildə istismardan çıxarılan "Saab 105" təlim təyyarələrini əvəzləyəcək. Satınalma üçün büdcə hələ 2022-ci ildə təsdiqlənib.

Avstriyanın müdafiə naziri Klaudiya Tannerin sözlərinə görə, İtaliyadan alınacaq reaktiv təyyarələr ölkənin Hərbi Hava Qüvvələrinin imkanlarında yaranan boşluğu dolduracaq, pilotların hazırlıq səviyyəsini 100 faiz artıracaq və hava hücumundan müdafiə sistemlərini əhəmiyyətli dərəcədə gücləndirəcək.

"Leonardo M-346FA" silah daşıya bilən ikiyerlik reaktiv təyyarədir. Avstriya onlardan pilot hazırlığı, quru qoşunlarına dəstək və hava hücumundan müdafiə vasitələri kimi istifadə edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Abdullayev Fuad Məhəmməd oğluna verilmiş MV № 126127 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Məsul katib
mayor Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
kapitan Mahmud MÖHBALIYEV

Lisenziya № 361
Sifariş № 794
Nüsxə 4650